1. Orxan eyni anda həm dərslərini bitirmək, həm startap layihəsini idarə etmək, həm də könüllü fəaliyyətlə məşğul olmaq istəyir. Lakin hər iş üçün kifayət qədər vaxtı yoxdur.
Hansı addım Orxan üçün ən effektiv strategiya ola bilər?

- Bütün fəaliyyətləri dayandırmaq və yalnız istirahət etmək
- √ Ən vacib və aşağı prioritet olan sahələri müəyyən edərək fokuslanmaq
- Fəaliyyətlərin hamısını eyni vaxtda aparmaq
- Boş vaxtında yalnız sosial mediaya vaxt sərf etmək
- Hər işə bərabər vaxt ayırmaq

2. Həyat çarxı metoduna əsasən, tələbə həyat sahələrini qiymətləndirir. Hansı yanaşma doğru prioritet təyini prinsipi ilə ziddiyyət təşkil edir?

- Seçdiyiniz sahədə balans və yaxşılaşma üçün tədbirlər planı qurmaq
- √ Yüksək bal toplayan sahələrə daha çox diqqət ayırmaq
- Ən az məmnun olduğunuz sahəni müəyyən edib ona fokuslanmaq
- Həyat sahələrini 1-dən 10-a qədər qiymətləndirmək
- Müvafiq sahədə resursları və dəstəyi təyin etmək

3. Tələbə öz karyerasında 3 il sonra idarəçi vəzifəsinə yüksəlmək istəyir. GROW modelinə əsasən, Reality mərhələsində hansı fəaliyyət ən uyğun və məqsədəuyğundur?

- Mentor tapmaq və ondan yalnız motivasiya mesajları almaq
- √ Hazırda öz bacarıqlarını və mövcud iş təcrübəsini qiymətləndirmək
- Kitab oxumağa başlamaq, amma praktikada heç nə etməmək
- Uzaq gələcək hədəfləri düşünmək və planlaşdırmaq
- Networking qurmaq üçün sosial şəbəkələrdə passiv olmaq

4. Aşağıdakılardan hansı mentor, kouç və məsləhətçi arasındakı fərqi real iş situasiyası baxımından düzgün göstərir?

- Mentor motivasiya verir; kouç yalnız texniki bilik verir; məsləhətçi yalnız rəhbərlik bacarıqlarını öyrədir
- Mentor işin idarə olunması üçün plan verir; kouç sual vermir; məsləhətçi yalnız sosial bacarıqları öyrədir
- Mentor yalnız maliyyə qərarlarını verir, kouç isə yalnız təhsil planı verir
- Mentor və kouç eyni rol oynayır, məsləhətçi fərqlidir
- √ Mentor konkret karyera məqsədləri üçün plan qurmağa kömək edir; kouç güclü suallar verərək şəxsin öz potensialını ortaya çıxarmağa yönəldir; məsləhətçi isə yalnız qərarları verir

5. Onlayn iş axtarışının mənfi cəhətləri arasında göstərilən “məlumat çoxluğu” hansı hallarda müsbət amilə çevrilə bilər?

- İş elanlarının sayında azalma müşahidə olunursa
- Namizəd yalnız bir sosial şəbəkə vasitəsilə müraciət edirsə
- Rekrutinq şirkətləri vakansiyaları gizli saxlayırsa
- √ Namizəd informasiyanı süzgəcdən keçirmək və düzgün filtrasiya bacarığına malikdirsə
- Məlumatlar yalnız dövlət qurumları tərəfindən paylaşılırsa

6. Tələbə iş axtarır, lakin təcrübəsi yoxdur və çoxlu rəqiblər içində fərqlənməkdə çətinlik çəkir. Mətnə əsasən, bu şəxs üçün ən uyğun ilkin addım hansıdır?

- √ Sosial şəbəkələrdə aktiv paylaşımlar və əlaqə qurmaq
- Yalnız dostlarının təkliflərinə güvənmək
- Rekrutinq agentliklərinə müraciət etmək
- Yalnız xarici iş elan saytlarında qeydiyyatdan keçmək
- Şirkətlərin saytlarına birbaşa müraciət etmək

7. Bir namizəd müsahibə zamanı şirkət haqqında sual vermir, yalnız qısa cavablarla kifayətlənir və görüşün tez bitməsini istəyir. Bu davranış ən çox hansı psixoloji səbəbin göstəricisidir?

- Özündən razılıq və maraq azlığı
- Emosional intellektin yüksəkliyi
- √ Özgüvənsizlik və müdafiə refleksi

- Stressə qarşı dayanıqlılıq
- Yalnız texniki bacarıqlara yönəlmə

8. Müsahibədə “Niyə sizi seçməliyik?” sualı verildikdə hansı cavab daha inandırıcıdır?

- Bu işə çox ehtiyacım olduğu üçün
- Digər namizədlərdən daha çalışqan olduğum üçün
- Yüksək təhsil aldığım üçün
- √ Bu sahədə təcrübəm və bacarıqlarım şirkətinizin ehtiyaclarına uyğundur
- İstənilən işlə məşğul ola biləcəyim üçün

9. Siz HR mütəxəssisisiniz. Telefonla müsahibə təyin edərkən namizəd sizdən hansı məlumatları soruşmalıdır?

- İş haqqında tam məlumat
- HR şöbəsinin rəhbərinin tərcümeyi-halı
- İşçinin əvvəlki vəzifə maaşını
- √ Müsahibənin vaxtı, məkanı və əlaqə məlumatları
- Şirkətin digər vakansiyaları haqqında məlumat

10. Müsahibədə özgüvənli davranış nümayiş etdirmək üçün hansı yanaşma daha doğrudur?

- Müdafiə mövqeyi tutaraq müsahibəni tez bitirmək
- Sual verməkdən çəkinmək və yalnız soruşulanları cavablandırmaqMüsahibəyə bir tərəfli seçim prosesi kimi yanaşmaq
- Müsahibəyə bir tərəfli seçim prosesi kimi yanaşmaq
- Çətin suallardan qaçmağa çalışmaq
- √ Öz güclü və zəif tərəflərinizi barədə səmimi məlumat vermək və qarşı tərəfi də qiymətləndirmək

11. Müsahibə zamanı "Niyə məhz bu şirkətdə işləmək istəyirsiniz?" sualı verilir. Bu suala ən uyğun cavab hansı ola bilər?

- Bu sahədə başqa bir iş tapa bilmədiyim üçün
- İşə qəbul prosesinizin sadəliyinə görə
- Yüksək maaş təklif etdiyiniz üçün
- Məsuliyyətlərin az olması mənim üçün rahatdır
- √ Şirkətinizin bazarda uğurlu mövqeyini bəyəndiyim və peşəkar inkişaf üçün imkanlar təklif etdiyiniz üçün

12. E-mail vasitəsilə təşkilatın bütün işçilərinə müraciət etməlisiniz. Ancaq bəzi məlumatların məxfiliyini qorumaq üçün yalnız seçilmiş şəxslərin ünvanlarını göstərmək istəyirsiniz. Hansı bölmədən istifadə etməlisiniz?

- √ Bcc
- Cc
- To
- Forward
- Reply All

13. Sizin rəhbərlik etdiyiniz təşkilatda işçilər arasında gizli məlumatların sızması problemi yaşanır. Gizliliyi təmin etmək üçün hansı addımı atmalısınız?

- √ Gizlilik haqqında əlavə təlimatlar keçirmək
- Məlumat sızdıran işçiləri dərhal cəzalandırmaq
- İşçilərə ciddi xəbərdarlıq etmək
- Gizli məlumatlara giriş hüququnu hər kəsə açıq saxlamaq
- Məlumat sızmasını müşahidə etmək və gözləmək

14. Bir işçi təşkilatın əsas dəyərlərini qəbul edə bilmir və mütəmadi olaraq həmkarlarının təkliflərinə qarşı çıxır. Bu, komanda daxilində gərginliyə səbəb olur. Bu vəziyyətdə hansı strategiya tətbiq edilməlidir?

- Həmkarlarını işçi ilə mübahisələrdən çəkinməyə çağırmaq
- İşçini başqa şöbəyə transfer etmək
- İşçiyə yeni tapşırıqlar vermək
- √ İşçini təşkilatın dəyərləri ilə tanış etmək və uyğunlaşması üçün dəstək vermək

- İşçini dərhal işdən uzaqlaşdırmaq

15. İşgüzar yazışmalarda "To", "Cc" və "Bcc" bölmələrindən necə istifadə edilməlidir?

- "To" hər kəsin ünvanı üçün istifadə edilir, "Cc" və "Bcc" nəzərə alınmır
- Bu bölmələrin istifadəsi iş mühitində əhəmiyyətli deyil
- "Bcc" ümumiyyətlə istifadə edilmir, yalnız "To" və "Cc" yetərlidir
√ "To" birbaşa ünvanlanan şəxslər, "Cc" əlaqəli şəxslər, "Bcc" gizli qalmasını istədiyiniz şəxslər üçün istifadə edilir
- "Cc" yalnız rəhbərlər üçün istifadə olunur, "To" və "Bcc" əhəmiyyətsizdir

16. Korporativ mədəniyyətin əsasını təşkil edən komponentlərdən biri hansıdır?

- İşçilərin fərdi maraqları
- Müştərilərin tələb və şikayətləri
- Rəhbərlərin tənqidləri
- Geyim tərzi qaydaları
√ Təşkilatın vizyon və missiyası

17. Normativ etik dəyərlər iş mühitində nə üçün vacibdir?

- İşçilərin yalnız fərdi inkişafını təmin etmək üçün
- Müştəri bazasını genişləndirmək üçün
- İdarəçilərin avtoritar idarəetmə qabiliyyətini artırmaq üçün
√ Ədalətli, dürüst və məsuliyyətli iş mühiti yaratmaq üçün
- Təşkilatın maddi gəlirlərini artırmaq üçün

18. Bir tələbə müsahibə zamanı HR mütəxəssisinin suallarına düzgün cavab verir, lakin öz suallarını vermir, şirkət haqqında maraqlanmır və passiv davranır. Bu namizədin əsas çatışmazlığı nədir?

- Texniki hazırlığın natamam olması
- İş təklifinin şərtlərinə uyğun gəlməməsi
- Peşəkar bacarıqlarının zəifliyi
- Müsahibə etikası qaydalarına əməl etməməsi
√ Emosional intellekt və qarşılıqlı əlaqə bacarıqlarının zəifliyi

19. Aşağıdakılardan hansı işgüzar yazışma qaydalarının pozulmasına nümunədir?

- E-mailin mövzu hissəsində yazının məzmununa uyğun başlıq göstərmək
- Yazının göndərilməzdən əvvəl oxunub yoxlanılması
- Qısa və konkret ifadələrdən istifadə etmək
√ Bütün məktub alan şəxsləri “To” bölməsində qeyd etmək
- E-mailin sonunda elektron imza əlavə etmək

20. Aşağıdakı ifadələrdən hansında mobbing və bullinq anlayışlarının fərqi düzgün göstərilmişdir?

- Mobbing bir şəxs tərəfindən edilən psixoloji təzyiqdir, bullinq isə bir qrup tərəfindən edilir.
- Mobbing fiziki zorakılıq, bullinq isə emosional şiddət növüdür.
- Bullinq daha çox iş mühitində, mobbing isə məktəb mühitində baş verir.
√ Mobbing qrup tərəfindən edilir, bullinq isə fərdi şəkildə tətbiq olunur.
- Hər iki anlayış eyni mənanı ifadə edir, sadəcə fərqli dillərdə işlənir.

21. Aşağıdakılardan hansı emosional zəkanın zəif olmasının ən əsas göstəricilərindən biri hesab olunur?

- Mənfi emosiyaları idarə edərək sükunəti qorumaq
- Öz davranışlarını qarşı tərəfin hisslərinə uyğunlaşdırmaq
- İnsanların tənqidini obyektiv şəkildə qəbul etmək bacarığı
- Emosiyaları düzgün tanımaq və ifadə etmək qabiliyyəti
√ Hissləri gizlədərək stresin yığılması və asanlıqla gərginliyə düşmək

22. Emosional zəkanın inkişaf yollarından hansı emosiyaların idarə olunması (self-regulation) mərhələsinə daxil deyil?

- Mənfi fikirləri yenidən dəyərləndirmək və daha pozitiv baxış bucağı seçmək
- Əsəbi vəziyyətlərdə 10 saniyə gözləyərək cavab vermək
- "Tənqid"i "öyrənmək fürsəti" kimi dəyərləndirmək
- √ Gündəlik emosiyalar haqqında düşünmək və onları yazmaq
- Əsəbiləşəndə dərhal reaksiya verməmək və dərin nəfəs almaq

23. Aşağıdakılardan hansı emosional zəkanın yüksək olmasının akademik mühitdə yaratdığı nəticələrdən biri deyil?

- Akademik məqsədlərə çatmaqda daha davamlı olmaq
- Sosial münasibətlərdə balanslı davranmaq
- Qrup işlərində əməkdaşlıq və dəstəyi təşviq etmək
- √ Akademik stressi artırmaq və performansı zəiflətmək
- Təlim motivasiyasının və özünəinamın artması

24. Tədqiqatlara əsasən, emosional zəkanın (EQ) tələbələrin akademik nailiyyətinə təsiri hansı mexanizm vasitəsilə dolayı yolla baş verir?

- İntellektual zəka səviyyəsinin yüksəldilməsi vasitəsilə
- Sosial status və ailə dəstəyi vasitəsilə
- Yaddaş gücü və analitik düşünmə qabiliyyəti vasitəsilə
- Tədris proqramının keyfiyyəti və müəllimlərin təcrübəsi vasitəsilə
- √ Özünəinam, motivasiya və dayanıqlılıq kimi pozitiv psixoloji xüsusiyyətlər vasitəsilə

25. Aşağıdakılardan hansı əmək bazarının xüsusiyyətlərinə daxil deyil?

- Dinamiklik
- Qeyri-maddi imtiyazların vacibliyi
- √ Tam sabitlik və dəyişməzlik
- Uzunmüddətli əlaqələr
- Fərdi spesifiklik

26. Əmək bazarında əməyə tələbi kim formalaşdırır?

- İş axtaranlar
- İctimai təşkilatlar
- Təhsil müəssisələri
- √ İşəgötürənlər
- Dövlət orqanları

27. Əmək bazarının əsas xüsusiyyətlərindən biri hansıdır?

- Yalnız maddi imtiyazların vacibliyi
- İşçilər yalnız dövlət sektorunda işləyirlər
- Əmək bazarı statik bir sistemdir
- √ Şəxslər yox, xidmətlər alınıb-satılır
- Qeyri-maddi amillərin əhəmiyyətsizliyi

28. Bir iş yoldaşınızın tez-tez stressli hallarda emosiyalarına nəzarət edə bilmədiyini və komandadakı atmosferi pozduğunu müşahidə edirsiniz. Bu işçiyə emosional zəkanın gücləndirilməsi üçün hansı təkliflər vermək daha doğru olar?

- Heç biri
- İşdən uzaqlaşdırılmasını tövsiyə etmək
- Daha az məsuliyyətli işlərdə çalışmasını təmin etmək
- √ Öz duyğularını dərk etmək və idarə etmə yollarını öyrənməsini təklif etmək
- Onu diqqətsiz davranışlarına görə tənqid etmək

29. Bir işçi fövqəladə vəziyyətdə stressə qapılır və bir müddət ərzində düzgün qərar verə bilmir. Beynin hansı hissəsi bu vəziyyətdə daha tez işə düşərək belə bir reaksiyaya səbəb olur?

- Prefrontal lob
- Talamus
√ Limbik sistem
- Hipokampus
- Neokorteks

30. Bir şirkət rəhbəri işçilərinin komanda işini yaxşılaşdırmaq istəyir. Rəhbər bir işçi ilə bağlı digər işçilərin onun emosional olaraq komanda ilə uyğunlaşmadığını bildirən şikayətlər alır. Rəhbər bu vəziyyətdə hansı addımı atmalıdır?

- İşçini başqa bir şöbəyə göndərməlidir
- İşçini dərhal işdən çıxarmalıdır
- Şikayətləri qulaqardına vurmalıdır
- İşçilər arasında rəqabəti artırmalıdır
√ İşçilərə emosional zəka təlimləri təşkil etməlidir

31. Emosional zəkanın iş həyatında uğura təsiri nə qədərdir?

- 0.40
- 0.20
√ 0.80
- 1

32. Amigdala beyində hansı rolu oynayır?

- Rasional qərarların əsasını təşkil edir
- Sadəcə xatirələri yadda saxlayır
- Beyni qoruyucu reflekslərlə təmin edir
√ Emosional reaksiyaların yaranmasına cavabdehdir
- Beynin dil funksiyalarını idarə edir

33. Daniel Golemanın fikrincə, emosional zəka nədir?

- Sadəcə liderlik bacarığını təkmilləşdirmək
- İnsanların fikirlərinə təsir göstərmək bacarığı
- Bioloji proseslərin idarə olunması
- Yalnız duyğuları tanıma qabiliyyəti
√ Öz duyğularını və başqalarının duyğularını idarə etmək bacarığı

34. Limbik sistem beyində hansı funksiyanı yerinə yetirir?

- Məntiqi düşüncəni idarə edir
√ Emosiyaları idarə edir və instinktləri tənzimləyir
- Sadəcə xatirələri saxlayır
- Hərəkət koordinasiyasına cavabdehdir
- Nitqin formalaşmasını təmin edir

35. Emosiyanın əsas funksiyalarından biri nədir?

- İnsanları sosial fəaliyyətlərdən uzaqlaşdırmaq
- Emosiyalar həmişə müsbət olur
- Yalnız bioloji proseslərə təsir etmək
√ Gələcək davranışların formalaşdırılması
- Beynin rasional hissələrini inkişaf etdirmək

36. Mobbinq ilə bullinq arasındakı əsas fərq nədir?

- Mobbinq bir şəxsin, bullinq isə bir qrupun tətbiq etdiyi zorakılıqdır.

- Mobbinq hüquqi məsuliyyət doğurur, bullinq isə hüquqi məsuliyyət daşımır.
- Mobbinq yalnız qadınlara, bullinq isə kişilərə qarşı tətbiq edilir.
- Bullinq yalnız iş mühitində, mobbinq isə şəxsi mühitdə baş verir.
- √ Mobbinq bir qrupun, bullinq isə bir şəxsin zorakılıq tətbiq etməsidir.

37. Korporativ mədəniyyətin formalaşmasına təsir edən əsas amillərdən biri hansıdır

- İşçilərin şəxsi maraqları.
- İşçilərin şəxsi həyatları ilə bağlı problemlər.
- Şirkətin günlük gəliri.
- √ Şirkətin yerləşdiyi coğrafi yer.
- İşçilərin geyim seçimi.

38. Rəhbər tabeçiliyindəki işçiyə mobbinq tətbiq edir. Bu vəziyyətdə işçi necə davranmalıdır?

- Məsələni dərhal hüquq-mühafizə orqanlarına çatdırmalıdır.
- Digər işçilərlə mobbinq edən şəxsə qarşı qrup yaratmalıdır.
- Heç bir tədbir görmədən gözləməlidir.
- √ Mobbinq edən şəxslə danışmalı və rəhbərinə məlumat verməlidir.
- İşini itirməmək üçün vəziyyəti qəbul etməlidir.

39. Əmək bazarı nədir?

- İşçilərlə işəgötürənlərin əyləncə yeri
- Malların və xidmətlərin ticarəti üçün məkan
- Təhsil müəssisələrinin əməkdaşlıq platforması
- Dövlətin əmək haqqını müəyyən etdiyi orqan
- √ İşçi qüvvəsi ilə bağlı alış-veriş prosesinin baş verdiyi məkandır

40. “Nələr sizin ‘qırmızı xəttinizdir’?” sualı VISA alətinin hansı hissəsini müəyyən etməyə kömək edir?

- İstedadları
- Hədəfləri
- Bacarıqları
- Maraqları
- √ Dəyərləri

41. “İnsanın müəyyən bir fəaliyyətə meyilli və qabiliyyətli olması” ifadəsi VISA alətinin hansı hissəsinə aiddir?

- Goals
- Skills
- √ Aptitudes
- Interests
- Values

42. Aşağıdakılardan hansı maraqları müəyyən etmək üçün verilən düzgün sualdır?

- Hansı dəyərləriniz sizin üçün toxunulmazdır?
- Hansı prinsiplərinizlə hesablaşırsınız?
- √ Nələri etmək sizi xüsusilə həyəcanlandırır?
- Nəyi etmək sizdə yaxşı alınır?
- Həyatınızda hansı çətin qərarlar almısınız?

43. "İnsanın həyatı boyu sonradan qazandığı və inkişaf etdirdiyi xüsusiyyətlər” – bu tərif hansı anlayışa aiddir?

- Maraqlar
- İstedadlar
- Hədəflər
- Dəyərlər
√ Bacarıqlar

44. Aşağıdakılardan hansı dəyərə aid nümunədir?

- Səbir
- Planlaşdırma bacarığı
- Əmək haqqı
- Kompüter bilikləri
√ Dürüstlük

45. VISA alətində “V” hərfi nəyi ifadə edir?

- Virtue (Fəzilət)
- Validity (Etibarlılıq)
- Vision (Baxış)
- Variety (Müxtəliflik)
√ Value (Dəyər)

46. SWOT analizi karyera planlamasında hansı məqsədlə aparılır?

- İşəgötürənin tələblərini öyrənmək üçün
- İdarəetmə strukturunu qurmaq üçün
- Maliyyə planlaması aparmaq üçün
- Yeni işçiləri seçmək üçün
√ Güclü və zəif tərəfləri, imkanları və təhdidləri müəyyənləşdirmək üçün

47. Karyera planlaması insanlara nə imkanı yaradır?

- Yalnız yüksək maaşlı işlərə yönəlməyi
- Təhsili dayandırmadan eyni anda iki işdə işləmək
√ Gələcək məqsədlərinə uyğun hərəkət etməyi və resurslarını səmərəli istifadə etməyi
- İş yerini tez-tez dəyişməyi
- Öz bacarıqlarını gizlətməyi

48. Karyera planlamasının əsas məqsədi nədir?

- Qısa müddətli təcrübə qazanmaq
- Sadəcə iş tapmaq və gəlir əldə etmək
- İş yerini tez-tez dəyişmək
- Təhsil müddətini uzatmaq
√ Gələcəyin yol xəritəsini müəyyənləşdirərək, məqsədlərə sistemli şəkildə çatmaq

49. Karyeranın təşəkkül mərhələsi hansı yaş aralığını əhatə edir və bu mərhələdə əsas proses nədir?

- 30–45 yaş; yüksək vəzifəyə keçid başlayır
- 18–25 yaş; insan peşə seçimini edir
- 60–65 yaş; pensiyaya hazırlıq dövrüdür
√ 25–30 yaşı əhatə edir və peşənin mənimsənilməsi, peşəkarlığın formalaşması baş verir
- 45–60 yaş; nailiyyətlər möhkəmlənir

50. İşgüzar karyeranın planlaşdırılması deyəndə aşağıdakılardan hansı nəzərdə tutulur?

- İşçinin yalnız işdən çıxma prosesini
- İşçinin yalnız ixtisas dəyişməsi prosesini
- Təkcə təhsil mərhələsindəki inkişafını
√ İşçinin işə qəbuldan işdən ayrılana qədər vəzifə və ya iş yeri üzrə irəliləməsini planlaşdırmasını

- İşçinin qısa müddətli əmək fəaliyyəti

51. Aşağıdakı ifadələrdən hansı karyerada tamamlama mərhələsini düzgün xarakterizə edir?

- İnsan yeni vəzifə yüksəlişi əldə edir
- Fəaliyyətin əsas məqsədi gəlir mənbələrinin artırılması olur
- İnsan ixtisasını yeni öyrənməyə başlayır
- Peşəkarlıq formalaşır və irəliləyiş başlayır
- √ İşçi pensiyaya hazırlaşır, öz yerinə layiqli namizəd axtarılır

52. Araşdırmalara görə, işəgötürənlərin çoxu işçilərdə aşağıdakı bacarıqlardan hansına daha çox üstünlük verir?

- Universitet diplomuna
- İxtisas üzrə iş təcrübəsinə
- Yalnız yüksək GPA
- Xarici dil biliyinə
- √ Komandada işləmək, problem həll etmək və iş etikası bacarıqlarına

53. İşgüzar yazışma zamanı elektron məktubda diqqət edilməli əsas məqam nədir?

- Rəngarəng şriftlərdən istifadə etmək.
- Məktubu 48 saat ərzində cavablandırmaq.
- Böyük hərflərlə yazmaq.
- Mövzu sətrinin boş buraxılması.
- √ Peşəkar elektron imzanın əlavə olunması.

54. X şirkətində avtoritar idarəetmə tərzi tətbiq edilir. Bu idarəetmə tərzinin mənfi təsiri nə ola bilər?

- İşçilərin iş vaxtını dəqiq bölüşdürməsi.
- İşçilərin məsuliyyət hissinin artması.
- Rəhbər və işçi arasında güclü kommunikasiya qurulması.
- Şirkət gəlirlərinin azalması.
- √ şçilərin təşəbbüskarlığının azalması və mənəvi iqlimin zəifləməsi.

55. Korporativ mədəniyyət nədir?

- Şirkətin hər il dəyişən davranış qaydalarıdır.
- Şirkət işçilərinin geyim qaydalarını tənzimləyən normativlərdir.
- Şirkət rəhbərlərinin hazırladığı hərtərəfli iş planıdır
- √ Şirkətin əməkdaşları arasında bölüşən dəyər, simvol və inanc sistemidir.
- İşçilərin şəxsi həyatlarına təsir edən sosial qaydalar toplusudur

56. Emosional zəkanın liderlər üçün vacib bir xüsusiyyəti hansıdır?

- Yalnız fərdi qərar qəbul etmək
- Yalnız öz maraqlarını güdmək
- Başqalarının hisslərinə biganə olmaq
- √ Münaqişələri həll etmək və əməkdaşlığı artırmaq
- Komandaya sərt davranmaq

57. Emosional zəkanın intellektual zəkadan üstün olduğu əsas sahə hansıdır?

- Məntiqi qərarlar qəbul etmək
- Yüksək akademik nailiyyətlər qazanmaq
- Texniki bilikləri öyrənmək

√ Şəxsi və iş münasibətlərini idarə etmək
• Elmi tədqiqatlar aparmaq

58. Professor Cəmil Dadaşov stresli vəziyyətdə nitqini tamamlaya bilmir. Bu halda o, emosional zəkanın hansı xüsusiyyətində zəiflik nümayiş etdirir?

• Empatiya qurmaqda çətinlik
• Özünü dərk etməmək
• Özünü motivasiya edə bilməmək
√ Özünü idarə edə bilməmək
• Münasibətləri idarə edə bilməmək

59. Emosional zəka ilə bağlı ilk termini kim təqdim etmişdir?

• Daniel Goleman
• Reuven Bar-On
• Howard Gardner
√ John Mayer və Peter Salovey
• Edward Thorndike

60. Akif komandası ilə müzakirə etmədən qərar qəbul edir və bu, iş prosesinə mənfi təsir göstərir. Daniel Golemanın emosional zəka modelinə əsasən, Akifdə hansı zəka zəifliyi var?

• Özünü motivasiya edə bilməmək
√ Münasibətləri idarə edə bilməmək
• Özünü idarə edə bilməmək
• Empatiya qurmaqda çətinlik çəkmək
• Özünü dərk etməmək

61. Emosional zəkanın əsas funksiyalarından biri hansıdır?

• Duyğuları gizlətmək
• İnsanları qorxuya salmaq
√ Sosial münasibətlərin tənzimlənməsi
• İnsanların fikirlərini dəyişmək
• Məqsədsiz fəaliyyətə təkan vermək

62. Nə üçün müsahibə zamanı jarqonlardan istifadə edilməməlidir?

• Jarqonlar işəgötürənin diqqətini yayındıra bilər.
• Jarqonlar müsahibənin nəticəsini yaxşılaşdırır.
• Jarqon istifadə etməmək üçün xüsusi bir səbəb yoxdur.
√ Jarqonlardan istifadə peşəkarlıq təəssüratı yaratmır.
• Söhbəti daha maraqlı etmək üçün jarqon vacibdir.

63. Situasiya: Sizə iş müsahibəsi üçün uyğun olmayan bir vaxt təklif edilir. Bu halda necə davranmalısınız?

• Təklif edilən vaxtı qəbul edərək iş görüşünə getmək.
√ Uyğun olmadığını bildirərək alternativ vaxt təklif etmək.
• Heç bir reaksiya verməmək və vaxtında iştirak etməmək.
• Müsahibədən imtina etmək.
• Zəng edən şəxsin təkidini gözləmək.

64. Güclü namizədin xüsusiyyətlərindən biri hansıdır?

• Çətin suallardan qaçmaq.
• Göz kontaktından qaçmaq.

√ Özgüvənli olmaq, bacarıqlarını nümayiş etdirmək.
• Müsahibəyə həddindən artıq emosional yanaşmaq.
• Sadəcə çox yüksək maaş tələb etmək.

65. Bir şirkət soft skills-i (yumşaq bacarıqları) hard skills-dən (texniki bacarıqlardan) üstün tutur. İş axtaran şəxs bu tələblərə necə cavab verə bilər?

√ Peşəkar kommunikasiya və komanda ilə işləmə bacarıqlarını inkişaf etdirmək
• Soft skills tələb etməyən işlərə müraciət etmək
• Soft skills-i gözardı edib yalnız texniki bilikləri artırmaq
• Yalnız texniki bacarıqlara fokuslanmaq
• Şirkətin bu tələblərini nəzərə almamaq

66. Bir namizəd iş axtarışı zamanı yalnız CV göndərməklə kifayətlənir və nəticə əldə edə bilmir. Onun iş axtarışı strategiyasını inkişaf etdirmək üçün hansı məsləhət uyğundur?

• Yalnız tanış vasitəsilə iş tapmağa çalışmaq
• Müraciət etdiyi şirkətlərlə əlaqəni kəsmək
• İş elanlarını izləmədən təsadüfi müraciətlər etmək
√ Bir neçə iş axtarışı alətindən paralel istifadə etmək
• Mövcud üsulları dəyişmədən tətbiq etmək

67. Nihad uzun müddət iş tapmaqda çətinlik çəkir və motivasiyasını itirir. Bu vəziyyətdə ona hansı xüsusiyyətlər kömək edə bilər?

• Yalnız qısa müddətli işlərə müraciət etmək
• İş axtarışını müvəqqəti dayandırmaq
• İş axtarışına bircə üsulla davam etmək
• Mövcud vəziyyətə uyğunlaşmadan gözləmək
√ Aktiv olmaq, səbirli davranmaq və yenilikçi yanaşma tətbiq etmək

68. Əli əmək bazarına daxil olmaq istəyir, lakin əmək bazarının əsas iştirakçılarını və onların funksiyalarını bilmədiyi üçün düzgün qərarlar verə bilmir. Əli üçün hansı yanaşma daha uyğun olar?

• Sadəcə işəgötürənlərə fokuslanaraq iş axtarmaq
• Əmək bazarının tələblərini tamamilə nəzərə almamaq
• Şəxsi maraqlarını nəzərə almadan işə müraciət etmək
√ Əmək bazarının iştirakçılarını və onların məqsədlərini öyrənmək
• Təhsil sisteminin fəaliyyətini araşdırmadan bazara daxil olmaq

69. Leyla karyerasında mentor seçmək istəyir, lakin seçəcəyi mentorun doğru seçim olub-olmadığını müəyyən edə bilmir. Bu halda hansı yanaşma ona kömək edə bilər?

• Mentor seçimində yalnız onun sosial nüfuzuna fokuslanmaq
• Mentorun karyerasını nəzərə almadan dərhal qəbul etmək
• Mentor seçmədən öz karyerasını davam etdirmək
√ Mentorun sahədə təcrübəsinə və sizin ehtiyaclarınıza uyğunluğunu analiz etmək
• Mentor seçimini başqa birinə həvalə etmək

70. Nicat həyat balansı çarxı üzrə təhlil aparır və bəzi sahələrdə nəticələrin çox aşağı olduğunu müəyyən edir. Onun həyat balansını bərpa etmək üçün hansı addım daha təsirli olar?

• Balı yüksək olan sahələr üzərində işləməyə davam etmək
• Həyat çarxında bütün sahələrə eyni resurs ayırmaq
• Həyat balansını yenidən təyin etməmək
√ Daha aşağı nəticə göstərən sahələrə fokuslanmaq
• Həyat çarxını tamamilə ləğv etmək

71. Ayan karyerasında irəliləmək üçün uzunmüddətli bir məqsəd təyin edir, lakin bu məqsədə çatmaq üçün kiçik addımları təyin etməyib. Bu çatışmazlığı necə aradan qaldıra olar?

• Məqsədə çatmaq üçün təkcə motivasiyaya güvənmək

- Məqsəd təyin etmədən fəaliyyətə başlamaq
- √ Məqsədləri daha kiçik və idarə edilə bilən tapşırıqlara bölmək
- Məqsədləri dəyişdirmədən davam etmək
- Uzunmüddətli məqsədləri təxirə salmaq

72. Elvin karyera hədəflərinə çatmaq üçün plan hazırlayır, lakin bu plan hesabatlı deyil və irəliləyiş yoxdur. Bu vəziyyətdə hansı addımı atması daha məqsədəuyğundur?

- Hesabatlılığı tamamilə gözardı etmək
- Hesabatlılığı vacib hesab etmədən davam etmək
- Planın tətbiqini başqalarına həvalə etmək
- √ İrəliləyiş üçün nəticələri mütəmadi ölçmək və qiymətləndirmək
- Yalnız son nəticəyə fokuslanmaq

73. Situasiya: İşə qəbul üçün keçirilən panel müsahibə zamanı namizəd aşağıdakı hərəkətlərdən hansını etməməlidir?

- Cavablarını konkret misallarla dəstəkləmək.
- Öz növbəsini gözləmək və dinləmək.
- Özünü rahat, amma ciddi şəkildə aparmaq.
- Digər iştirakçılardan daha tez cavab vermək üçün tələsmək.
- √ Verilən suala uyğun olmayan hekayələr danışmaq.

74. Müsahibəyə hazırlığın mərhələləri hansılardır?

- Şirkətin dəyərlərini əzbərləmək, intervü zamanı natiqlik bacarıqlarını nümayiş etdirmək.
- √ Hazırlıq (40%), müsahibənin özü (40%), əks-hücum (20%).
- Şirkət haqqında məlumat toplamaq, özünüzü təqdim etməyə hazırlaşmaq.
- Qorxularınızı aradan qaldırmaq və özünüzə inam yaratmaq.
- Müsahibə ilə bağlı heç bir hazırlıq görməmək.

75. Telefon müsahibəsinə hazırlaşırsınız. Sizdən əsasən hansı məqamları diqqətdə saxlamağınız tələb olunur?

- Yüksək səslə danışmaq.
- Veriləcək bütün sualları əzbərləmək.
- Sadəcə bir neçə cavab variantı hazırlamaq.
- Telefonu səsli rejimə qoymaq.
- √ Danışacağınız yerin sakit və diqqət yayındırmayan bir məkan olduğuna əmin olmaq.

76. Müsahibə nədir?

- İşə qəbul menecerinin şəxsi görüşlər keçirmə üsuludur.
- Şirkətin gələcək planlarını öyrənmək üçün bir prosesdir.
- √ Vakansiyaya uyğunluğunuzu və işə marağınızı dəyərləndirən prosesdir.
- Yalnız işçinin bacarıqlarını dəyərləndirən testdir.
- Namizədin psixoloji vəziyyətini yoxlama üsuludur.

77. Bir dostunuz yeni işə qəbul olmaq üçün sizinlə məsləhətləşir. Ona hansı məsləhəti verərdiniz?

- √ Bir neçə iş axtarışı alətindən istifadə etsin
- Yalnız öz peşəsinə uyğun işlərə müraciət etsin
- İş tapmaq üçün bir neçə ay gözləsin
- Təkcə dost-tanış vasitəsilə iş tapsın
- Sadəcə ona yaxın olan işlərə müraciət etsin

78. Bir şirkətdə "top management" vəzifəsi üçün vakansiya açılsa və bu, konfidensial saxlanılsa, nə etməli?

√ Şirkətə birbaşa müraciət etmək
- İş elanlarını izləmək
- Sosial şəbəkələrdə paylaşım etmək
- Tanışlar vasitəsilə məlumat almaq
- İşəgötürənlə birbaşa əlaqə qurmaq

79. Sosial şəbəkələr vasitəsilə iş axtarmağın mənfi tərəfi nədir?

- İnformasiyanın az olması
- İş elanlarının keyfiyyətsiz olması
- Şəbəkələşmənin effektiv olmaması
√ Rəqabətin çoxluğu və məlumatların qarışıqlığı
- Reklamların çoxluğu

80. İş axtarışı zamanı "bazar dəyərinin artırılması" hansı vasitələrlə həyata keçirilə bilər?

- Yalnız könüllülük fəaliyyəti ilə
- Təcrübə proqramları və şəbəkələşmə ilə
- Yalnız yüksək maaşlı işlərlə
√ Yuxarıdakıların hamısı ilə
- Sahə üzrə təcrübə və araşdırmalarla

81. Bir namizəd iş axtararkən bir neçə şirkətdən rədd cavabı alır. Onun növbəti addımı nə olmalıdır?

- İş axtarışını tamamilə dayandırmaq
- Daha az uyğun olan işlərə müraciət etmək
√ Yeni bacarıqlar öyrənmək və CV-ni yeniləmək
- Sosial mediada şikayət etmək
- Yalnız yüksək maaşlı işlərə müraciət etmək

82. Bir işəgötürən kimi hansı namizədə üstünlük verərdiniz?

- Müsahibədə özünü yaxşı təqdim edən namizəd
- Şirkətin tələblərinə uyğun sertifikatı olan namizəd
√ Yuxarıda qeyd olunan bütün şərtləri qismən ödəyən namizəd
- Komandada işləmək bacarığı olan namizəd
- Yalnız təcrübəli namizəd

83. İş axtarışı strategiyasında ən çox rast gəlinən əfsanələrdən biri hansıdır?

- İş elanları yalnız şirkətlərin saytlarında mövcuddur
- İşə qəbul üçün yalnız şəbəkə faydalıdır
- Bütün namizədlər eyni şərtlərlə qiymətləndirilir
- Əsas göstərici namizədin iş təcrübəsidir
√ Hər iş elanına tez cavab gəlir

84. Aysel özünə məqsəd təyin edir, lakin reallıqdan kənar hədəflər seçdiyi üçün motivasiyasını itirir. Onun məqsədlərini daha realistik etmək üçün hansı addım uyğun olar?

- Mövcud vəziyyəti nəzərə almadan böyük hədəflərə fokuslanmaq
√ Mövcud resurslara əsaslanan hədəflər müəyyənləşdirmək
- Hədəfləri daha abstrakt şəkildə saxlamaq
- Planı və hədəfləri bir anda ləğv etmək
- Motivasiya problemlərini gözardı edərək işə davam etmək

85. Tamara Kaizen texnikası əsasında karyera planı hazırlamaq istəyir. Onun ilk addımı nə olmalıdır?

√ Problemin mövcudluğunu qəbul etmək və həlli üçün kiçik addımlar planlamaq
• Hədəflərinə dərhal çatmağa çalışmaq
• Komanda üzvlərinin tövsiyələrini tamamilə nəzərə almamaq
• Yalnız yüksək xərclər tələb edən həll yollarına yönəlmək
• Uzunmüddətli planlardan imtina edərək yalnız ani nailiyyətlərə fokuslanmaq

86. Aytən özünü dərk etməyə çalışır və sual verir: "Mən kiməm? Mənim məqsədlərim nələrdir?" O, hansı yanaşmanı tətbiq edərək daha effektiv nəticələr əldə edə bilər?

• Gələcək planlarına fokuslanmadan, keçmiş uğursuzluqlarını təhlil etmək
• Yalnız hazırkı vəziyyətini nəzərə almaq
• Özünün "Mən-ideal" tərəfini nəzərə almamaq
√ Özünü tənqid etmədən və tərifləmədən, faktlara əsaslanmaq
• Özünü yalnız sosial rolu ilə məhdudlaşdırmaq

87. Elşən "Kaizen fəlsəfəsi"ni şəxsi inkişafında tətbiq etmək istəyir. Hansı yanaşma onun məqsədinə uyğun hesab oluna bilər?

• Problemləri həll etmədən yalnız böyük nailiyyətlərə fokuslanmaq
• Yalnız iqtisadi mənfəəti əsas meyar kimi götürmək
• Komanda üzvlərinin fikirlərini nəzərə almamaq
√ Davamlı inkişaf üçün kiçik addımlar atmaq
• Fəaliyyətində yalnız böyük xərclər tələb edən planlara üstünlük vermək

88. Lalə karyera planlamasına başlamadan öncə öz məqsədlərini və mövcud vəziyyətini təhlil etmək istəyir. Hansı addım bu prosesə düzgün başlanğıc sayılır?

• Qısamüddətli hədəfləri nəzərə almamaq
• Təhsilini artırmadan dərhal fəaliyyət planı hazırlamaq
• Maliyyə resurslarını dərhal sərf etmək
• Əmək bazarını araşdırmadan fəaliyyətə başlamaq
√ Öz potensialını SWOT analizi vasitəsilə qiymətləndirmək

89. Jalə "Dəyərlər və İnanc" səviyyəsində Robert Dilts modeli üzrə problemlər yaşayır. Onun bu problemi həll etmək üçün atmalı olduğu ilk addım nə olmalıdır?

• Ətraf mühit faktorlarını tamamilə gözardı etmək
• Dəyərlərin şəxsi həyatı ilə əlaqəsi olmadığını qəbul etmək
• Kimlik səviyyəsinə keçmədən problemi həll etməyə çalışmaq
√ Öz inanclarını və həyat dəyərlərini təhlil etmək
• Davranış səviyyəsində dərhal dəyişikliklər etmək

90. Süleyman maraqlarına uyğun sahəni seçmək istəyir, lakin maraqlarını dəqiq müəyyən edə bilmir. Ona hansı sual kömək edə bilər?

• Hansı qərarlar sizin üçün əhəmiyyətsizdir?"
• Həyatda əsas məqsədiniz nədir?
• Başqaları sizi necə qiymətləndirir?"
• Hansı sahələrdə uğur əldə etməmisiniz?"
√ Hansı işlər sizdə həyəcana səbəb olur və xoşbəxt edir?

91. Xəyyam Robert Dilts'in Məntiqi Alqı Səviyyələri modelinə əsaslanaraq davranış səviyyəsində problemlər yaşayır. Hansı strategiya ona bu problemi həll etməyə kömək edər?

• Bacarıq səviyyəsinə fokuslanmadan problemə həll axtarmaq
• Ətraf mühitin problemlərlə heç bir əlaqəsi olmadığını düşünmək
• Yalnız inanclar səviyyəsinə diqqət yetirmək
√ Ətraf mühiti dəyişərək davranışına təsir etmək
• Mövcud davranışı dəyişmədən davam etmək

92. İş axtarışında onlayn alətlərin mənfi tərəfi hansıdır?

- Universallıq
- √ Rəqiblərin çoxluğu
- Hər yaş qrupu üçün uyğunsuzluq
- Yavaş internet sürəti
- Məlumatların istifadəyə yararsız olması

93. Bir işəgötürən müsahibə zamanı namizədə "Niyə məhz bizim şirkətə qoşulmaq istəyirsiniz?" sualını verir. Namizədin effektiv cavabı nə ola bilər?

- "Sadəcə iş axtarıram, fərqi yoxdur harada."
- "Şirkətiniz haqqında heç bir məlumatım yoxdur."
- "Yüksək maaş təklif etdiyinizi eşitdim."
- √ "Şirkətinizin innovativ yanaşması və dəyərləri mənə ilham verir."
- "Bura yaxın olduğuna görə müraciət etdim."

94. Təsəvvür edin ki, yeni məzun bir tələbəsiniz və iş axtarışına başlamısınız. Sosial şəbəkələrdə hansı addımı atmaq daha effektiv olar?

- Yalnız dostlarınızla iş axtardığınızı bölüşmək
- Peşəkar iş elanları səhifələrini izləmək
- Sadəcə şəxsi profilinizdə paylaşım etmək
- √ Vakansiya qruplarına qoşulub paylaşım izləmək
- Heç bir paylaşım etməmək və başqalarından yardım gözləmək

95. İşçinin bazar dəyərini artırmaq üçün hansı fəaliyyətlər effektiv sayılır?

- Yalnız bir iş axtarışı alətindən istifadə etmək
- Yalnız yüksək maaşlı işlərə müraciət etmək
- Yalnız təhsilini artırmaq
- Şəbəkəni genişləndirmək və sosial mediada aktiv olmaq
- √ Könüllülük fəaliyyəti və sahə təcrübələri

96. İş axtarışında uğur qazanmaq üçün istifadə olunan "Şəbəkə" anlayışı hansı mənanı ifadə etmir?

- Şirkətə birbaşa müraciət etmək
- Yaxın dost-tanışlardan yardım istəmək
- Qeyri-formal əlaqələrlə iş tapmaq
- Sosial şəbəkələrdə iş elanları paylaşmaq
- √ Rekrutinq şirkətlərinə müraciət etmək

97. Mentor, kouç və məsləhətçinin fərqini hansı ifadə daha yaxşı təsvir edir?

- Mentor peşəkar suallar verir, kouç isə fəaliyyət planı hazırlayır
- √ Mentor təcrübəsini paylaşır, kouç sual verir, məsləhətçi isə strategiya təqdim edir
- Məsləhətçi şəxsi inkişaf mövzusunda məlumat verir, mentor isə təcrübə paylaşır
- Mentor yalnız sual verir, kouç isə məsləhət verir
- Məsləhətçi karyera üçün təlimatlar verir, kouç isə bələdçilik edir

98. Şəxsi inkişaf qaydalarından biri hansıdır?

- √ Pis bir vərdişi hər ay tərk etmək
- Həftəlik büdcə planı hazırlamaq
- İşgüzar təcrübələrdən uzaq durmaq
- Yalnız müsbət tərəflərə fokuslanmaq
- Keçmiş səhvləri təkrar etmək

99. Karyera strategiyasında hansı yanaşma məsləhət görülmür?

- Təcrübəli mentorla çalışmaq
- Komfort zonasından çıxmaq
- Təhsili artırmaq
- √ Hədəfləri başqasına tapşırmaq
- Mənfi insanlardan uzaqlaşmaq

100. Mentor kimdir?

- Karyera qurmaq istəyən şəxs
- √ Peşəkar qərarlar və məsləhətlər verən şəxs
- Təşkilatın rəhbəri
- Karyera planlaması mövzusunda kitab yazarı
- Tələbələrə dərs deyən müəllim

101. Şəxsi inkişaf nəyi məqsəd qoyur?

- Liderlik bacarıqlarını artırmaq
- Həftəlik idman rejimi qurmaq
- Yeni iş yerləri açmaq
- İnsanların peşəkar şəbəkəsini genişləndirmək
- √ İnsanların mənfi duyğu və inanclarını müsbətə çevirmək

102. Fərdi karyera planlama zamanı hansı mənbələrdən istifadə etmək olmaz?

- Seminarlar və konfranslar
- Sertifikat proqramları
- Mentorluq proqramları
- √ Ən son dəb meylləri
- Oxumalar (kitablar, bloglar)

103. Karyerada boşluqların analizi zamanı hansı fəaliyyət planı tərtib olunmalıdır?

- Zaman cədvəli
- Əmək haqqı hesablaması
- Növbəti təhsil addımları
- √ Fəaliyyət planı
- Tətil planı

104. GROW modelinin “Reality” mərhələsində hansı sual verilmir?

- Problemləriniz nələrdir?
- Bu mövzu ilə bağlı indiyə qədər nə etmisiniz?
- Hazırda nə baş verir?
- Həyatınızda nə eksikdir?
- √ Nəyi yaxşı edə bilərəm?

105. Sona RIASEC modeli əsasında bədii (artistic) şəxsiyyət tipinə malikdir. Hədəfinə uyğun peşə seçmək üçün hansı sahə ona daha uyğun ola bilər?

- Mühəndis
- Tibb bacısı
- Mühasib
- √ Moda dizayneri
- Psixoloq

106. Cavid əmək bazarında öz dəyərini yüksəltmək istəyir. Onun hansı yollardan istifadə etməsi daha məqsədəuyğun olar?

- Heç bir fəaliyyətə qatılmadan iş axtarmaq
- Mövcud dəyəri ilə kifayətlənmək
- Bacarıqlarını artırmadan yalnız təhsil səviyyəsinə fokuslanmaq
- İşəgötürənlərin tələblərini tamamilə nəzərə almamaq
- √ Könüllülük fəaliyyətləri və təcrübə proqramlarında iştirak etmək

107. Əzizə iş imkanlarının artdığı bir sahəyə yönəlmək istəyir. Bu sahəni necə araşdıra bilər?

- Araşdırma aparmadan hər hansı bir sahəni seçmək
- İş imkanlarını nəzərə almadan başqa sahəyə keçmək
- √ İqtisadi trendləri və sahənin inkişaf perspektivlərini araşdırmaq
- Sahə ilə bağlı heç bir araşdırma etmədən qərar vermək
- Sadəcə tanışlarının tövsiyələrinə əsaslanmaq

108. Bir işçi müdirindən davamlı olaraq tapşırıqların gecikdirilməsi ilə bağlı şikayət alır. O, bu problemin səbəbini araşdırmaq üçün vaxtını necə planladığını və hansı bacarıqları istifadə etdiyini təhlil edir. Bu yanaşma hansı səviyyəyə aiddir?

- Ətraf mühit
- √ Qabiliyyətlər
- İnanclar və dəyərlər
- Davranış
- Kimlik

109. Bir layihə meneceri vizyonunda qeyd edir:
"Beynəlxalq səviyyədə tanınan layihələrdə liderlik etmək və komandamla mükəmməl nəticələr əldə etmək."
Menecerin bu vizyonunu həyata keçirməsi üçün aşağıdakı addımlardan hansı daha effektiv ola bilər?

- Mövcud iş mühitini təhlil etmək
- Komandasında olan üzvlərin bacarıqlarını inkişaf etdirmək
- Yeni liderlik təlimlərinə qatılmaq
- Layihə ilə bağlı mövcud problemləri araşdırmaq
- √ Uzunmüddətli məqsədlərə uyğun kiçik hədəflər təyin etmək

110. Banu universitet təhsilini başa vurduqdan sonra karyera vizyonunu hazırlayır. O, "Maliyyə analitikası sahəsində beynəlxalq səviyyədə tanınmaq istəyirəm" ifadəsini yazır. Banunun vizyonunda hansı əlavə ona daha konkret bir yol xəritəsi çəkməyə kömək edər?

- Bu sahədə liderlərin təcrübəsini öyrənmək
- Tələbəlik dövründəki nailiyyətlərinin qeyd edilməsi
- Qısa müddətli maliyyə hədəflərinin müəyyən edilməsi
- Şəxsi dəyərlərin təsvir olunması
- √ Səriştələrinin və bacarıqlarının təhlil edilməsi

111. Bir karyera məsləhətçisi gənc mütəxəssislərə vizyon və missiya yazmağı öyrədir. Aşağıdakı hallardan hansında vizyon və missiya arasında fərq düzgün ifadə olunur?

- Missiya şəxsi xüsusiyyətlərə fokuslanır, vizyon isə fəaliyyət istiqamətlərinə.
- Missiya emosional motivasiya yaradır, vizyon isə praktiki nailiyyətlər üzərində qurulur.
- Vizyon şəxsi maraqlara, missiya isə sosial məsuliyyətə əsaslanır.
- √ Vizyon gələcək üçün ümumi istiqamət müəyyən edir, missiya isə konkret fəaliyyət planıdır.
- Vizyon qısamüddətli məqsədləri əhatə edir, missiya isə yalnız şəxsi dəyərləri.

112. Xədicəiş axtararkən öz vizyon bəyanatına aşağıdakıları daxil edir: "Texnologiya sahəsində innovativ həllər təklif edən lider olmaq." O, bu vizyonu rezumesində necə inteqrasiya etməlidir?

- İş təcrübələri bölməsinə yazaraq aydınlaşdıra bilər
- Şəxsi məlumatlar bölməsinə qısa qeyd əlavə edə bilər
- √ Hədəflər bölməsinə əlavə edərək potensial işəgötürənə göstərə bilər
- Təhsil bölməsində akademik nailiyyətləri ilə əlaqələndirə bilər
- Peşəkar bacarıqlar siyahısında bir sətir əlavə edə bilər

113. Fərdi karyera planlaması neçə mərhələdən ibarətdir?

- 2
√ 4
- 6
- 7
- 3

114. Karyera yol xəritəsi nədir?

√ Fərdin A nöqtəsindən B nöqtəsinə qədər olan planı
- Müəyyən bir ixtisas üzrə təhsil planı
- Fərdin işə qəbul formu
- Tələbənin dərs planı
- İş yerindəki ofis dizaynı

115. Karyera planlamasının sonuncu mərhələsi hansıdır?

- Öz potensialını dərk etmək
- Karyera məqsədlərini müəyyənləşdirmək
- Fəaliyyət planı hazırlamaq
√ Gedişatı davamlı olaraq qiymətləndirmək
- Əmək bazarını araşdırmaq

116. Karyera planlamasında əmək bazarının analizi hansı məqsədə xidmət edir?

- Fərqli karyera yollarını sınamaq üçün
- Daha geniş sosial əlaqələr qurmaq üçün
√ Sektorun tələblərinə uyğun peşəkar bacarıqları təyin etmək üçün
- Təhsil imkanlarını artırmaq üçün
- Hər zaman ən yüksək maaşı təmin etmək üçün

117. Özünü dərk etmək nədir?

- Maliyyə resurslarının məhdudluğunu qəbul etmək
- Yalnız peşəkar bacarıqlarını analiz etmək
- Özünü digərləri ilə müqayisə etmək
- Şirkət daxilindəki yerini dərk etmək
√ Kim olduğunu və hədəflərini başa düşmək

118. Aşağıdakılardan hansı SWOT analizində zəif tərəfə aid edilə bilər?

- İnnovativ düşüncə qabiliyyəti
- Yeni təlimlərə çıxış imkanı
- Komanda ilə yaxşı işləmək bacarığı
√ Təcrübənin yetərsiz olması
- D) Sektorda olan yeni texnologiyaların artması

119. Rəhbər və mütəxəssis kimi çalışanlar üçün ortaq bacarıqlardan biridir

- müstəqil qərar vermə
- liderlik
- təşəbbüskarlıq
√ Komanda ilə işləmək bacarığı
- inandırma bacarığı

120. İşaxtaran namizədin hansı xüsusiyyətləri olmalıdır, biri yanlışdır

- Yenilikçi olmaq

- İş axtarışı alətlərini bilmək və istifadə etmək
√ İş yerini tez-tez dəyişməlidir
- Məqsədini bilmək
- Səbirli davranmaq

121. Əmək bazarını niyə nəzərə almalıyıq, doğruları tapın

- Heç biri
- düzgün və perspektivli ixtisas seçimi etməliyik
- gələcək karyeramızı istiqamətlərinə təsir edən amilləri analiz etməliyik
√ Hamısı doğrudur
- əməyə olan tələblərə təsir edir və əmək haqqını formalaşdırır

122. Əmək bazarının xüsusiyyətlərinə aid deyil

- Qeyri-maddi imtiyazların vacibliyi – iş şəraiti, sığorta, inkişaf imkanları, iş rejimi
- Alıcının və satıcının uzunmüddətli əlaqəsi
√ Alıcının və satıcının qısammüddətli əlaqəsi.
- Dinamiklik – peşəyə və iş yerinə olan tələblər daim dəyişir
- Xidmət alınır və satılır

123. Əmək bazarının maraqlı tərəfləri (əməkdaşlığa maraqlı tərəflər)

- sahibkarlar
- satıcılar
- sahibkar və işəgötürən
- işçilər
√ İşəgötürən və iş axtaran

124. Əmək bazarı nədir?

- əməyin olduğu yer
- yalnız satışın olduğu yer
- xidmət və əməyin olduğu yer
√ tələb və təklifin olduğu yer
- satış və əməyin olduğu yer

125. Özünüdərketmənin formalaşması mərhələsinə aid deyil

- Özü haqqında vahid fikrin formalaşması.
- Özünə hörmətin formalaşması.
- Daxili dünyanızı açmaq.
√ İnsanın özünü, psixikasını, ehtiyaclarını bilmək
- Sevginin dərk edilməsi.

126. Özünüdərk prosesinin mərhələsi deyil

- Harada olduğunuzu və hara getdiyinizi müəyyənləşdirmək.
- İnsanın özünün tərifi: Mən kiməm?
- Özünüdərketmənin formalaşması:
√ Karyerada yüksəliş
- Hədəflərə doğru addımlamaq

127. Karyera planlamasının mərhələlərinə aiddir

- Öz potensialını dərk etmək
- heç biri
- Karyera məqsədlərinin təyin olunması
√ hamısı

- Əmək bazarının potensialının araşdırılması

128. «Prioritetinizi müəyyənləşdirin. Planınızı keyfiyyət, dəyər, paylanma prinsiplərə uyğun olaraq reallaşdırın». Bu prinsiplər hansına aiddir?

- Holland modeli
- √ Kayzen texnikası
- VISA
- SWOT analizi
- Robert Dilts modeli

129. Əsma öz karyera vizyonunu hazırlayır və aşağıdakıları qeyd edir: "Dürüstlük, yaradıcılıq və peşəkarlıq dəyərlərinə əsaslanan layihələrdə işləmək, bu sahədə tanınmış mütəxəssis olmaq." Bu vizyonun hansı elementi çatışmır?

- Şəxsi dəyərlərin müəyyən edilməsi
- Qısa müddətli fəaliyyət planı
- Missiya bəyanatının əlavə edilməsi
- Sərişdə və bacarıqların təhlili
- √ Karyera hədəfinin dəqiq təsviri

130. Karyera irəliləyişi adətən hansı istiqamətdə baş verir?

- Kənara sövq edən
- Üfüqi
- Mərkəzə sövq edən
- √ Hamısı
- Şaquli

131. Sizin dəyərləriniz çevikliyi və innovasiyanı əks etdirir. Şirkətinizdə hansı addımlar atılmalıdır ki, bu dəyərlərə uyğun bir missiya yaradılsın?

- Uzunmüddətli planlar hazırlamaq
- Ənənəvi metodları tətbiq etmək üçün fokuslanmalıdır
- İdarəetmə dəyişməz qalmalıdır
- √ Rəhbərlik innovativ yanaşmalar üçün strategiya inkişaf etdirməlidir
- Qısa müddətli nəticələrə fokuslanmalıdır

132. Emosional zəka modelində ən aşağı səviyyə nəyi ifadə edir?

- Duyğuların daha intensiv və şüurlu şəkildə idarə olunması.
- Özünü motivasiya etmək və uğursuzluğa qarşı pozitiv qalmaq.
- Öz emosiyalarını düzgün şəkildə idarə etmək.
- √ Emosiyanı qavramaq və ifadə etmək kimi sadə bacarıqlar.
- Başqalarının emosiyalarını anlamaq.

133. Aşağıdakılardan hansı emosional zəkanın xüsusiyyətlərindən biridir?

- √ Başqalarının duyğularını başa düşmək və öz emosiyalarını idarə etmək bacarığı.
- Yalnız bədən dili ilə əlaqəli olması.
- Hissləri yalnız şüurlu şəkildə idarə etmək.
- İnsanların yalnız intellektual bacarıqları ilə ölçülməsi.
- Sosial münasibətlərin formalaşdırılması ilə əlaqəsiz olması.

134. Daniel Goleman emosional zəka haqqında hansı fikri irəli sürmüşdür?

- Emosional zəka başqalarının duyğularını başa düşməkdən ibarətdir, öz emosiyalarını idarə etməkdən ibarət deyil.
- Emosional zəka yalnız iş həyatında əhəmiyyətlidir.
- Emosional zəka yalnız təbii olaraq insanlara verilən bir qabiliyyətdir.
- Emosional zəka insanın intellektual zəka ilə əlaqəli olmadığı bir sahədir.
- √ Emosional zəka insanların öz duyğularını və başqalarının duyğularını tanımaq və idarə etmək bacarığıdır.

135. Emosional zəka nədir?

- Hissləri idarə etmə bacarığı yalnız şəxsi həyatda əhəmiyyətlidir.
- Əsasən bədən dilinin və üz ifadələrinin düzgün istifadəsi ilə əlaqəlidir.
- İnsanların həyatında uğur qazanmaq üçün yalnız intellektual zəka tələb olunur.
- Emosional zəka yalnız xarici mühitin təsiri ilə inkişaf edir.
√ Öz duyğularını və başqalarının duyğularını tanımaq və idarə etmək bacarığıdır.

136. Emosiya nədir?

√ Fərdin daxilindən və ya xarici mühitdən gələn qıcıqlara qarşı ifadə, duruş və davranışın təsiri ilə özünü göstərən hisslər toplusu.
- İnsanların yalnız şüurlu şəkildə hiss etdiyi təbiət hadisələrinə bağlı olan reaksiya.
- Qeyri-iradi olaraq baş verən idrak hadisələri.
- Fərdin məqsədlərinə çatmasına təsir edən intellektual güclər toplusu.
- İnsanın sosial və əxlaqi dəyərləri ilə əlaqəli olan hisslər toplusu.

137. Mobbing nədir?

- Şirkət daxilində işçilərin inkişafına kömək edən təlim proqramı
- Şirkətin sosial media siyasəti
- İşçilərin geyim tərzinin tənzimlənməsi
√ Şirkət daxilində qrup halında bir işçiyə psixoloji təzyiq göstərilməsi
- Rəhbər işçilərin maaşlarının artırılması

138. Johari pəncərəsi modelində yer alan gizli sahəyə aid xüsusiyyətlərdən hansı doğrudur?

- Onun fərqində olmadığı bəzi rəftar, keyfiyyət və davranışlar var.
√ Hamısı doğrudur
- İnsanın paylaşmaq istəmədiyi və şüurlu şəkildə gizlətmək istədiyi məlumatlar daxildir.
- Heç biri
- Özünə məlum olan, lakin başqalarına məlum olmayan xüsusiyyətləri ehtiva edir.

139. 39 yaşlı Alsu dövlət qurumunda böyük mütəxəssis vəzifəsində çalışır. Onu yaxın müddətdə sektor müdiri vəzifəsinə təyin edəcəklər. O özü fərqində olmasa da, başqaları tərəfindən tənqidə açıq olmayan biri kimi tanınır. Alsu karyerasının hansı mərhələsindədir və Johari pəncərəsinə görə hansı hissənin xüsusiyyətini özündə daşıyır?

√ İrəliləyiş və kor hissə
- İlkin və gizli hissə
- İrəliləyiş və açıq hissə
- Saxlama və kor hissə
- Tamamlama və açıq hissə

140. Amerika psixoloqları Harry İnqram və Co Luft (Harry Ingram və Joe Luft) tərəfindən hazırlanmış «Johari pəncərəsi» modelinə görə biri «Açıq sahə»nin xüsusiyyyətlərinə aid deyil.

- Yaxşı ünsiyyət qurmağı bacarır
- Əməkdaşlığa açıqdırlar
- Fərqlilikləri və müxtəlifliyi təbii qəbul edirlər
- Təşəbbüskardırlar
√ Risk etməyi sevməzlər

141. Kayzen texnikasının cəhətlərinə aid olmayan variantı seçin.

- Günahkar axtarmırlar, problem həll edilir
√ Problemin həllində yalnız bir nəfər öhdəlik daşıyır
- Kiçik addımlar
- Davamlı inkişaf
- Mərkəzdə - problem həlli

142. Kayzen texnikasının prinsiplərinə aid deyil.

- Düzgün həll vasitələrindən istifadə edin
- Problemin mövcudluğunu qəbul edin.
- Əvvəlcə öz şəxsi problemlərinizi həll edin.
- √ Yalnız iqtisadi mənfəətə hədəflənin
- Planlaşdır, tətbiq et, yoxla və tədbirli ol üsulundan istifadə edin.

143. Bunlardan biri Robert Dilts piramidasına aid deyil

- Davranış
- Ətraf mühit
- İnanclar və dəyərlər
- √ Zəif tərəflər
- Kimlik

144. Fidan maddi vəziyyəti yaxşı olan ailədə böyüyüb, anasının Təhsil Mərkəzi var, UNEC-in marketinq fakültəsindən yüksək nailiyyətlərlə məzun olmağa hazırlaşır. Mərkəzin marketinqi ilə özü məşğul olacaq. Fidan UNEC-də Tələbə Gənclər Təşkilatı vasitəsilə tanış olduğu mühasibatlıq ixtisasında oxuyan Nurayın da bu mərkəzdə mühasib işləməsini istəyir və anasına onu tövsiyə edir. SWOT analizinə görə Fidanı və Nurayı xarakterizə edin.

- Fidanın imkanları var (O) və Nuraya imkanlar yaradıb (O)
- Fidan və Nuray üçün hər biri zəif tərəfdir
- √ Fidanın güclü tərəfləri var, (S) Nuraya imkanlar yaranıb (O)
- Fidanın da, (S) Nurayın da güclü tərəfləri üst-üstə düşür (S)
- Nurayın zəif tərəfləri var, (W) Fidan bu vəziyyətdə imkanla qarşılaşıb (O)

145. SWOT analizinə görə universitetin təklif etdiyi tələbə mübadiləsi proqramlarını, karyera mərkəzinin xidmətini, könüllülük proqramlarını, əmək yarmarkalarının təşkilini hansı bölməyə qeyd etmək olar?

- Həm zəif, həm də fürstələr
- Təhlükələr (T)
- √ Fürsətlər- İmkanlar (O)
- Güclü tərəflər (S)
- Zəif tərəflər (W)

146. Psixoloq Dr John Holland tərəfindən hazırlanmış RIASEC modelinə görə standart- ənənəvi şəxsiyyət tipinin əsas xüsusiyyətlərinə aid deyil.

- Sistemli şəkildə verilən tapşırıqları yerinə yetirir
- Uçotların aparılması, hesablanması,
- √ Öyrətməyə və sosial fəaliyyətlərə meyilli
- Data əməliyyatları, məlumat emalı
- Sistemli, qaydalara əsaslanan fəaliyyətlər

147. Subordinasiya nəyi ifadə edir?

- İdarəetmədə yalnız rəhbərin qərarlarının tətbiqi
- Müştərilərlə münasibətlərin qurulması
- İşçilərin geyim tərzi ilə bağlı qaydalar
- √ Müxtəlif idarəetmə səviyyələrində olan şəxslər arasında tabeçilik qaydalarının mövcudluğu
- İşçilərin bir-birinə qarşı rəqabətini artırmaq

148. Aşağıdakılardan hansısı demokratik (kollegial) korporativ mədəniyyətin xüsusiyyətidir?

- İşçilərin azad qərar vermə imkanı olmaması
- Mərkəzləşdirilmiş idarəetmə və ciddi nəzarət
- √ Əsas qərarların kollegial qəbulu və ikitərəfli əks əlaqənin olması
- Rəhbərlərin bütün qərarları təkbaşına qəbul etməsi
- İşçilərin təşəbbüskarlığının qarşısının alınması

149. Korporativ mədəniyyətin formalaşmasına təsir edən amillərdən biri hansıdır?

- Yalnız əməkdaşların geyim tərzi
- İşçilərin şəxsi həyatı
√ Vizyon, dəyərlər və təcrübələr
- İdarəetmənin iyerarxik quruluşu
- Yalnız rəhbərlik tərzi

150. İşgüzar etika nəyi ifadə edir?

- İdarəetmədə mühafizəkarlığı artırmağı
- Yalnız iş görüşmələrini peşəkar şəkildə aparmağı
- Yalnız peşəkar bacarıqları artırmağı
- Şirkət daxilində yalnız rəhbər işçilərin fəaliyyətini
√ İnsanın davranışlarını etik standartlara uyğun tənzimləməyi

151. Karyera yol xəritəsinin tərtibində "Reality" mərhələsi nəyi əhatə edir?

- Mentor seçimini
- Yalnız təhsil sahəsindəki uğurları qeyd etməyi
- Uzunmüddətli hədəflərin təyin edilməsini
- Şəbəkə qurma prosesini
√ Hazırda həyatında baş verən vəziyyəti qiymətləndirməyi

152. Karyerada boşluqların analizi nə üçün vacibdir?

- Yalnız rəhbərlik bacarıqlarını inkişaf etdirmək üçün
- Şəbəkə qurma qabiliyyətini gücləndirmək üçün
- Yalnız akademik bilikləri artırmaq üçün
√ Çatışmazlıqları müəyyən edib onları aradan qaldırmaq üçün fəaliyyət planı hazırlamaq üçün
- Təhsil sahəsində uğur qazanmaq üçün

153. GROW modeli ilə bağlı doğru ifadəni seçin:

- Yalnız akademik nailiyyətlərə fokuslanır.
- Təkcə qısamüddətli hədəfləri müəyyənləşdirir.
√ Mövcud vəziyyəti və alternativləri real perspektivdə göstərərək planlama aparmağa kömək edir.
- Karyera yolunu təyin etmədən fəaliyyətə keçməyi təşviq edir.
- Karyera planlamasında yalnız şəxsi bacarıqların inkişafını əhatə edir.

154. Fərdi karyera planlamasının ilk mərhələsi nədir?

- Fürsətlərin qiymətləndirilməsi
- Networkinqin qurulması
- Planlama və fəaliyyət
√ Özü-özünü qiymətləndirmə
- Məqsəd və hədəflərin müəyyən olunması

155. Karyera yol xəritəsi nəyi ifadə edir?

- Tələbənin universitet illərindəki fəaliyyətlərini
- Yalnız təhsil prosesini
- İş görüşmələrində istifadə olunan sənədləri
√ A nöqtəsindən B nöqtəsinə gedən karyera planlama yolunu
- Yalnız iş təcrübələrinin siyahısını

156. Şəxsi inkişafın tərkib hissələrindən biri olmayan variant hansıdır?

- Özünü tanımaq və nöqsanları düzəltmək
- Müntəzəm kitab oxumaq

- Yeni bacarıqlar öyrənmək
- √ Mənfi insanlarla daha çox zaman keçirmək
- Yeni hobbilər yaratmaq

157. Karyera inkişafı üçün vacib olan strategiyalardan biri hansıdır?

- Tək başına çalışmaq
- Televizor izləməklə yeni biliklər qazanmaq
- yalnız öz bacarıqlarına güvənmək
- Heç bir plan qurmayaraq inkişaf etməyə çalışmaq
- √ Şəbəkə (Networking) qurmaq və genişləndirmək

158. Mentorun əsas funksiyası nədir?

- İdman təlimləri keçirmək
- Yalnız kommunikasiya bacarıqlarını inkişaf etdirmək
- Şəxsin maliyyə problemlərini həll etmək
- √ Tələbəyə peşəkar inkişaf üçün yollar göstərmək
- Yalnız təhsil sahəsində kömək etmək

159. Günel böyüyəndə pianoçu olmaq istəyirdi, lakin anasının təkidi ilə diş həkimi oldu. Holland modelinə görə Günelin arzusu hansı şəxsiyyət tipi idi və hazırda çalışdığı sahəyə görə hansı şəxsiyyət tipinə aiddir?

- Arzusuna görə araşdırmaçı, peşəsinə görə standart
- Hər ikisinə görə yaradıcı
- Arzusuna görə araşdırmaçı, peşəsinə görə araşdırmaçı
- √ Arzusuna görə yaradıcı, peşəsinə görə realist
- Arzusuna görə standart, peşəsinə görə yaradıcı

160. Ravid artıq 4 ildir ki, PAŞA Holdingdə mühasib vəzifəsində çalışır. O, psixoloq Dr John Holland tərəfindən hazırlanmış RIASEC modelinə görə hansı şəxsiyyət tipinə aiddir?

- Yaradıcı
- Realist
- Təşəbbüskar
- √ Standart- Ənənəvi
- Araşdırmaçı

161. Bunlardan biri psixoloq Dr John Holland tərəfindən hazırlanmış RIASEC modelinə görə yaradıcı insan tipinə aid deyil.

- Rəssam
- rəqqas
- √ bioloq
- aktyor
- müğənni

162. Bunlardan biri Psixoloq Dr John Holland tərəfindən hazırlanmış RIASEC modelinə görə araşdırmaçı insan tipinə aid deyil.

- Sosioloq
- Bioloq
- Alim
- √ Müğənni
- İqtisadçı

163. Aşağıdakılardan hansı vizyon bəyanatıdır?

- IKEA "Bir çox insan üçün hər gün daha yaxşı həyat bəxş etmək"
- SOCAR - Enerji keçidi, innovasiyalar və rəqəmsallaşdırma vasitəsilə əməliyyatlarımızı inkişaf etdirərək qabaqcıl enerji şirkəti olmaq
- Təhsil Tələbə Krediti Fondu - Təhsilin güzəştli şərtlərlə maliyyələşdirilməsi üzrə əsas operatora çevrilməklə yüksək keyfiyyətli əlçatan təhsilə nail olmaq

- UNEC - “100 yaşında dünyanın ən yaxşı 500 universitetindən birinə çevrilmək
√ hər biri

164. Siz yeni bir layihə rəhbərisiniz, lakin öz bacarıqlarınızı çox yüksək qiymətləndirirsiniz və tez-tez səhv qərarlar qəbul edirsiniz. Hansı fenomenə məruz qalmış ola bilərsiniz?

- Saxtakar sindromu
- Məqsədlərin təyin olunması
- Saxlama mərhələsi
√ Dunning-Kruger effekti
- İşçilərin az təcrübəsi

165. Dunning-Kruger effekti nəyi izah edir?

- A) Yüksək səviyyəli ixtisaslı insanların öz bacarıqlarını həddən artıq dəyərləndirməsi
- Aşağı səviyyəli işçilərin öz bacarıqlarını çox yüksək qiymətləndirməməsi
- Yüksək səviyyəli işçilərin öz bacarıqlarını reallığa uyğun qiymətləndirməsi
√ Aşağı səviyyəli ixtisaslı insanların öz bacarıqlarını həddindən artıq şişirtməsi və səhvlərini dərk edə bilməməsi
- Aşağı səviyyəli işçilərin öz bacarıqlarını az qiymətləndirməsi

166. 60 yaşında bir menecersiniz və işçilərinizə öz təcrübənizi ötürməyə və onları rəhbərliyə hazırlamağa çalışırsınız. Bu proses hansı mərhələyə uyğun gəlir?

- Keçid mərhələsi
√ Tamamlama mərhələsi
- İrəliləyiş mərhələsi
- Təşəkkül mərhələsi
- Saxlama mərhələsi

167. 35 yaşında bir işçi olaraq, yeni bacarıqlar qazanmaq və ixtisasınızı artırmaq üçün karyera irəliləyişinə diqqət yetirirsiniz. Hansı göstəricilər sizin irəliləməyinizi təmin edə bilər?

- Karyera planlaması etməmək
- Yalnız əvvəlki iş təcrübələri
- Mövcud vəzifədə qalmaq
√ Yeni vərdişlər və peşəkar təcrübələr qazanmaq
- Digər sahələrə keçid etməmək

168. İşgüzar karyeranın planlaşdırılması nədən ibarətdir?

- Qısamüddətli hədəflərini müəyyən edir
- İşçi gələcəyini planlamır
√ İşçi həm qısa, həm də uzunmüddətli məqsədlərini bilir və işdə irəliləməsi üçün göstəricilər müəyyən edir
- Yalnız uzunmüddətli məqsədlər üzərində düşünür
- İşçi sadəcə öz qısa müddətli məqsədlərini nəzərə alır

169. Karyera strategiyası nəyi ifadə edir?

- Sosial şəbəkələrdə daha aktiv olmağı
- Təkcə təhsil almağı
- Yalnız şəxsi bacarıqları artırmağı
√ Şəxsin karyera məqsədlərinə çatması üçün planlanmış davranış və fəaliyyətlər toplusunu
- Yalnız iş görüşmələrinə hazırlaşmağı

170. Şəxsi inkişafın əsas məqsədi nədir?

- Televizor izləməkdən uzaq durmaq
- Yalnız peşəkar bacarıqları artırmaq
- Başqaları ilə daha yaxşı münasibət qurmaq
√ Mənfi duyğu və düşüncələri müsbətə çevirmək və xoşbəxtliyə çatmaq

- İdman bacarıqlarını inkişaf etdirmək

171. STAR modelinin komponentləri hansılardır?

- Subject, Task, Action, Reaction
- Situation, Task, Answer, Result
- √ Situation, Task, Action, Result
- Subject, Time, Action, Result
- Situation, Time, Action, Result

172. Davranışa əsaslanan iş müsahibəsində (Behavioral Interview) hansı prinsip tətbiq olunur?

- Namizədin gələcək hədəflərini müəyyənləşdirmək
- Namizədin stresə reaksiyasını yoxlamaq
- Namizədin yalnız təhsilini nəzərə almaq.
- √ Keçmiş davranışların gələcək davranışların göstəricisi olduğu prinsipi
- Namizədin yalnız texniki bacarıqlarını yoxlamaq.

173. Panel müsahibəsinin əsas üstünlüyü nədir?

- Namizədin stres altında qalmasının qarşısını alır.
- Namizədin özünü rahat hiss etməsini təmin etmir.
- Müsahibə zamanı namizəd rahatlıq hiss edir.
- √ Namizədin bir neçə müxtəlif aspektinin eyni zamanda qiymətləndirilməsi
- Yalnız bir müsahibə aparanın iştirakı

174. Qrup müsahibəsi hansı hallarda tətbiq olunur?

- Yalnız uzun illər iş təcrübəsi olan namizədlər üçün.
- Stressə davamlılıq bacarıqlarının əhəmiyyətsiz olduğu hallarda.
- Namizədlər arasından seçim etmək üçün vaxt çox olduqda.
- √ Qısa müddətə işçi tapmaq, oxşar keyfiyyətlərə malik namizədlər çox olduqda və komanda ilə iş bacarıqlarının yoxlanılması üçün.
- Komanda ilə iş bacarıqlarının əhəmiyyətsiz olduğu hallarda.

175. Strukturlaşdırılmış müsahibənin əsas xüsusiyyəti nədir?

- Namizədlər qrup şəklində müsahibə olunur.
- Müsahibədə stress yaradılmasına çalışılır.
- Müsahibədə yalnız bir sual verilir.
- √ Namizədin tərcümeyi-halı, iş təcrübəsi və karyera yolu ətraflı öyrənilir.
- Qeyri-rəsmi və sərbəst suallar verilir.

176. Mentor seçimi zamanı nələr nəzərə alınmalıdır?

- Mentordan heç bir gözlənti olmaması.
- Özbaşına hərəkət etmək.
- Mentorluqdan imtina etmək.
- √ Mentoru seçərkən hədəflərin uyğunluğu və mentorun xüsusiyyətlərinə diqqət yetirilməsi
- Mentordan heç bir məsləhət almamaq.

177. Karyera strategiyasının əsas komponentlərindən biri hansıdır?

- Heç bir yenilik etməmək.
- Heç bir inkişaf etdirmə strategiyası seçməmək
- İşdə qalmağı çətinləşdirmək
- Özünü inkişafdan geri qoymaq.
- √ Bacarıqların inkişaf etdirilməsi

178. Fərdi inkişaf planı hansı addımları əhatə edir?

- Özünü inkişaf etdirməmək.
- Heç bir addım əhatə etmir.
- Planlaşdırma etmədən hədəflərə çatmaq.
- √ Məqsədlərin müəyyənləşdirilməsi, reallıqların qiymətləndirilməsi, ehtiyacların müəyyənləşdirilməsi və inkişaf fəaliyyətlərinin seçilməsi.
- Özünü inkişaf etdirmək üçün heç bir strategiyanı seçməmək.

179. Fərdi inkişaf planlaşdırmasının məqsədi nədir?

- İşdə qalmağı çətinləşdirmək.
- İşdə hər hansı bir dəyişiklik etməmək.
- Özünü inkişafdan geri qoymaq.
- Yalnız yuxarı hərəkət etmək.
- √ Performansı yaxşılaşdırmaq və potensiala çatmaq

180. Karyera boşluğu analizi zamanı hansı addım atılmalıdır?

- Özünü qiymətləndirmədən keçməmək.
- Heç bir araşdırma aparmamaq.
- Təsadüfi iş seçmək.
- Boşluqları görməzlikdən gəlmək.
- √ İşin tələbləri ilə mövcud bacarıqların müqayisəsi

181. İrəliləyiş mərhələsinin əsas xüsusiyyəti nədir?

- İşçinin peşəkar müstəqilliyinin azalması
- Yeni karyera başlanğıcı
- İşdən ayrılma mərhələsi
- Təhsil dövrünün başlaması
- √ İşçinin yeni vərdişlər və təcrübələr qazanması

182. Siz 30 yaşında bir işçisiniz və karyera irəliləyişinə fokuslanmaq istəyirsiniz. Hansı mərhələdəsiniz?

- Təşəkkül mərhələsi
- √ İrəliləyiş mərhələsi
- İlkin mərhələ
- Tamamlama mərhələsi
- Başlanğıc mərhələsi

183. Karyera quruculuğunda ilkin mərhələ hansı yaş dövrünü əhatə edir?

- 45-60 yaş
- 25-30 yaş
- 30-45 yaş
- √ 25 yaşa qədər
- 15-65 yaş

184. Siz bir şirkət daxilində karyera inkişafınızın bir müddət dayanmasına baxmayaraq yenidən irəliləmək istəyirsiniz. Bu halda hansı strategiyanı izləmək daha məqsədəuyğundur?

- Hard skills (sərt bacarıqlar) inkişaf etdirmək
- Həmişə mövcud vəzifədə qalmaq
- √ Yeni bacarıqlar əldə etmək və üfüqi inkişafı hədəfləmək
- İrəliləməni tamamilə dayandırmaq
- Karyera planlamasından imtina etmək

185. Təşkilat daxili karyera hansı istiqamətlər üzrə reallaşdırılır?

- Şaquli və üfüqi
- Kənara sövq edən

- Yalnız şaquli və mərkəzə sövq edən
- Yalnız üfüqi və şaquli
- √ Şaquli, üfüqi və mərkəzə sövq edən

186. İş yerində rəhbər vəzifəyə təyin olunmusunuz və yaxşı liderlik qabiliyyətləri inkişaf etdirmək istəyirsiniz. Hansı bacarıqlar bu prosesi dəstəkləyər?

- Təqdimat bacarıqları
- Texniki biliklər
- Hard skills
- √ Soft skills
- Fiziki bacarıqlar

187. Soft skills bacarıqları necə inkişaf etdirilə bilər?

- İş təcrübəsi əldə etməklə
- Yalnız təhsil proqramları ilə
- Ancaq texniki təlimlər vasitəsilə
- √ Müstəqil şəkildə və peşəkar mühitdə təcrübə yolu ilə
- Kurslarda iştirak etmədən

188. Bir müəssisədə müxtəlif iş sahələrində vəzifə dəyişdirmək istəyirsiniz. Bu, hansı karyera istiqamətinə uyğun gəlir?

- Şaquli karyera
- Fərdi inkişaf karyerası
- √ Üfüqi karyera
- Mərkəzə sövq edən karyera
- Kənara sövq edən

189. Siz tabeçiliyinizdə olan işçilərlə effektiv ünsiyyət qurmaq və onları motivasiya etmək istəyirsiniz. Hansi növ bacarıqlar bu məqsədə xidmət edir?

- Texniki bacarıqlar
- Hard skills (sərt bacarıqlar)
- Peşəkar bacarıqlar
- Dil bilikləri
- √ Soft skills (yumşaq bacarıqlar)

190. Mühəndissiniz və şirkətinizdə şaquli karyera irəliləyişi istəyirsiniz. Hansı addımlar atmaqla bu irəliləyişi təmin edə bilərsiniz?

- Həmişə mövcud vəzifənizdə qalmaqla
- Texniki bacarıqları artırmaqla
- Yalnız mükafat tələb etməklə
- İşdən kənar fəaliyyətlərlə məşğul olmaqla
- √ Daha yüksək vəzifələrə müraciət edərək

191. Karyera irəliləməsi ilə bağlı "mərkəzə sövq edən" istiqamət nəyi ifadə edir?

- Komanda ilə daha sıx əlaqələr qurmaq
- Fərdi layihələr həyata keçirmək
- Başqa funksiya sahəsinə keçmək
- √ B) Şirkət rəhbərliyinə yaxınlaşmaq və qeyri-formal əlaqələr yaratmaq
- Şaquli yüksəlişin əksinə hərəkət etmək

192. İş yerində birgə çalışdığınız komandada fərqli insanlarla necə uğurla işləmək olar?

- Texniki bacarıqları təkmilləşdirmək
- Şəxsi maraqlara yönəlmək
- Yalnız texniki biliklərə əsaslanmaq
- √ Fərqli şəxslərlə ünsiyyət və uyğunlaşmaq bacarığını inkişaf etdirmək

193. Hard skills nədir?

√ Texniki biliklər və bacarıqlar
• Ünsiyyət bacarıqları
• Dəstək verən sosial bacarıqlar
• Motivasiya təlimləri
• Təqdimat bacarıqları

194. Peşə nədir?

• Müxtəlif maraq dairələri üzrə fəaliyyətlər
• heç biri
• Təsadüfi görülən işlər
√ İnsanların öz fiziki və mənəvi güclərini tətbiq etdiyi fəaliyyət
• Gündəlik həyatdakı sosial görüşlər

195. Karyera boşluğu analizi nə məqsədlə aparılır?

• Karyera planlaması ilə əlaqəsi yoxdur.
• Heç bir planlaşdırma etmədən işə başlamaq üçün.
√ Bacarıq və kvalifikasiyalardakı boşluqları müəyyənləşdirmək üçün
• Mövcud bacarıqların gizlədilməsi üçün.
• Boşluqların olduğunu inkar etmək üçün.

196. Özünü qiymətləndirmə nəyi əhatə edir?

• Heç bir özünü tanıma prosesi aparmamaq.
• Yalnız bacarıqların qiymətləndirilməsi.
• Yalnız maraqların müəyyənləşdirilməsi.
• Başqalarının fikirlərinə uyğun olmaq.
√ Şəxsiyyət analizi, dəyərlər, maraqlar və güclü tərəflərin müəyyənləşdirilməsi

197. Karyera planının hazırlanması zamanı ilk addım nədir?

• Şəbəkə qurmağa başlamaq.
• İş axtarmağa başlamaq
• İmkanları araşdırmaq.
√ Özünü qiymətləndirmək və hədəfləri müəyyənləşdirmək
• Mentor axtarmaq.

198. Karyera planlaması nə üçün vacibdir?

• Zaman itkisinə səbəb olur
• Karyera hədəflərinin əhəmiyyətsizliyi üçün
• İş axtarışını çətinləşdirir
√ Uzunmüddətli müvəffəqiyyət və məmnuniyyət üçün
• Fərdi inkişafa mane olur

199. Karyera planlaması nəyi əhatə edir?

• Yalnız təhsilə yönəlmək
• Yalnız uzunmüddətli hədəflərə diqqət yetirmək.
• Heç bir plan olmadan iş axtarmaq.
√ Qısa və uzunmüddətli hədəflərə nail olmaq üçün planlı addımlar atmaq
• İstənilən işə başlamaq.

200. SWOT təhlili məqsəd qoyma ilə necə əlaqələndirilir?

• SWOT təhlili məqsəd qoyma ilə heç bir əlaqəsi yoxdur.

- SWOT təhlili məqsəd qoymaqdan sonra aparılır.
√ SWOT təhlili məqsəd qoyma prosesi üçün əsas təməl yaradır
- SWOT təhlili hədəf qoyma prosesinə heç bir təsir etmir.
- SWOT təhlili məqsəd qoymaya mane olur.

201. SWOT təhlili hansı məqsədlə istifadə olunur?

√ Güclü və zəif tərəfləri, fürsətləri və təhdidləri müəyyənləşdirmək üçün
- Strategiya hazırlamağa mane olan bir prosesdir
- Yalnız mənfi cəhətlərin müəyyənləşdirilməsi üçün.
- Hədəf qoymağı çətinləşdirmək üçün
- Yalnız müsbət cəhətlərin müəyyənləşdirilməsi üçün

202. SMART məqsədlərində "Müvafiq" meyarı nəyə aiddir

- Məqsədin əhəmiyyətsiz və əlaqəsiz olması.
- Məqsədin tamamilə özbaşına olması.
- Məqsədin yalnız emosional ehtiyaclara cavab verməsi.
- Məqsədin başqalarının fikirlərinə uyğun olması.
√ Məqsədin ümumi məqsədlərə və dəyərlərə uyğun olması.

203. SMART məqsəd qoymada "Əldə edilə bilən" meyarı nə deməkdir

- Məqsəd çox çətin olmalıdır ki, motivasiya yüksəlsin
- Məqsədin əldə edilməsi üçün heç bir səy göstərilməməlidir
√ Məqsəd real və əldə edilməsi mümkün olmalıdır.
- Məqsəd hər kəs üçün asanlıqla əldə edilə bilən olmalıdır.
- Məqsəd həmişə böyük və əldə edilməsi çətin olmalıdır

204. Hansı məqsəd təyin etməyin faydası deyil?

- Hədəflərə yönəlməyi artırır.
- Motivasiyanı yüksəldir.
- Prioritetlərin müəyyənləşdirilməsinə kömək edir.
- Özünə inamı artırır
√ Gündəlik həyatı daha da çətinləşdirir

205. Məqsəd qoyma prosesi vizyon və missiya ilə necə əlaqələndirilir?

- Məqsədlər vizyonu dəstəkləyir, ancaq missiya ilə əlaqəsi yoxdur.
- Məqsədlər vizyon və missiyanın əksinə işləyir.
- Məqsədlər vizyon və missiyadan tamamilə asılıdır və onlardan ayrı düşünülə bilməz.
- Vizyon və missiya ilə məqsədlər arasında heç bir əlaqə yoxdur.
√ Məqsədlər vizyon və missiyanın reallaşdırılması üçün konkret addımlar müəyyənləşdirir

206. “Gizli işə qəbul” tendensiyası nə ilə müəyyən edilir?

- İctimai iş elanları
- Yalnız xarici işə qəbul
- İşçi axtarışı
- Sosial media işə qəbulu
√ Şirkət daxilində kadrların axtarışı

207. Müasir işçilər üçün əsas yanaşma kimi nə təsvir olunur?

- Qısa müddətli öyrənmə
- Rəqəmsal bacarıqlardan az istifadə
- Birdəfəlik öyrənmə
√ Ömür boyu öyrənmə

- Tək bacarığa malik olma

208. Karyera irəliləyişi istiqamətlərindən biridir

- Şaquli
- Kənara sövq edən
- Üfüqi
- Mərkəzə sövq edən
- √ Hamısı

209. Peşəkar karyera hansı mərhələləri əhatə edir?

- Ailə və dostlarla vaxt keçirmək
- Müxtəlif maraq dairələri üzrə mərhələlər
- Tətil planları və təlimlər
- Müvəqqəti işlər və işdən kənar fəaliyyətlər
- √ Təhsil, işə girmə, peşəkar inkişaf, təqaüdə çıxma

210. Karyera nədir?

- İstirahət zamanı görülən fəaliyyətlər
- √ Bir insanın iş həyatı boyunca əldə etdiyi uğurlar və təcrübələr
- Qısa müddətli iş layihələri
- Məqsədlər və hədəflər toplusu
- İşdənkənar sosial fəaliyyətlər

211. Siz yeni bir sahəyə keçmək istəyirsiniz, ancaq güclü tərəflərinizin o sahəyə uyğun olduğunu düşünmürsünüz. Hansı mərhələni tətbiq etməlisiniz?

- Vizyonun dəyişdirilməsi
- Yalnız yeni bacarıqların öyrənilməsi
- √ Güclü tərəflərin yenidən nəzərdən keçirilməsi və uyğunlaşdırılması
- Əmək bazarının analizi
- Məqsədlərin müəyyən edilməsi

212. Holland metoduna görə realist şəxsiyyət növünə hansı peşə uyğun gələ bilər?

- Sosial işçi
- Hüquqşünas
- Tərcüməçi
- √ Mühəndis
- Yazıçı

213. Robert Dilts-in məntiqi səviyyələrində "Kimlik" səviyyəsi hansı sosial rolu izah edir?

- Şəxsi münasibətləri
- Qısa müddətli məqsədlər
- Davranış strategiyaları
- √ Peşəkar və şəxsi rollar
- Ətraf mühitlə əlaqə

214. Sizin dəyərləriniz çevikliyi və inovasiyanı əks etdirir. Şirkətinizdə hansı addımlar atılmalıdır ki, bu dəyərlərə uyğun bir missiya yaradılsın?

- Ənənəvi metodları tətbiq etmək üçün fokuslanmalıdır
- İdarəetmə dəyişməz qalmalıdır
- Uzunmüddətli planlar hazırlamaq
- Qısa müddətli nəticələrə fokuslanmalıdır
- √ Rəhbərlik innovativ yanaşmalar üçün strategiya inkişaf etdirməlidir

215. Robert Dilts'in məntiqi səviyyələr modelində "İnanclar və dəyərlər" səviyyəsində hansı sual soruşulur?

- Hansı dəyərlərim var?
- √ Mən kiməm?
- Mənim güclü tərəflərim nədir?
- Mən nə üçün bunu edirəm?
- Mən haradayam?

216. İşlədiyiniz qurumda lider olaraq böyümək istəyirsiniz və liderlik qabiliyyətlərinizdən istifadə etməklə yeni layihələr hazırlamaq istəyirsiniz. Bu aşağıdakı hansı mərhələyə uyğundur?

- Məqsədlərin müəyyən edilməsi
- Vizyonun həyata keçirilməsi
- Güclü tərəflərin müəyyənləşdirilməsi
- √ Missiya bəyanatının yazılması
- Əsas dəyərlərin müəyyən edilməsi

217. Holland metodu ilə şəxsiyyət tipi seçərək karyera istiqaməti necə müəyyən edilir?

- Şəxsin güclü tərəflərinə əsaslanaraq
- √ Şəxsi maraqlara və peşə təsnifatlarına əsaslanaraq
- Ailə maraqlarına əsaslanaraq
- Gələcək planlara əsaslanaraq
- Əmək bazarının tələblərinə əsaslanaraq

218. Vizyon bəyanatının rezumeyə daxil edilməsinin əsas səbəbi nədir?

- Gələcək planları müəyyən etmək
- İşəgötürənin gözləntilərini idarə etmək
- Yalnız keçmiş iş təcrübələrini göstərmək
- √ Namizədin gələcək ambisiyalarını işəgötürənə izah etmək
- Şəxsi maraqları bildirmək

219. İşlədiyiniz şirkətdə dəyərlərinizi əks etdirən bir missiya bəyanatı hazırlamaq istəyirsiniz. Aşağıdakı hansı sual sizə kömək edə bilər?

- Hansı ortaq dəyərlərimiz var?
- Mən bu işdə necə böyüyə bilərəm?
- Şirkətim üçün nə vacibdir?
- √ Mən bu missiyanı necə icra edəcəyəm?
- İşəgötürənlərim məni necə görmək istəyir?

220. Misal üçün siz mühəndissiniz. İşlədiyiniz şirkətdə rəhbər olmaq kimi bir vizyonunuz var. Bu hansı səviyyədə vizyon məqsədi ola bilər?

- Biznes
- Qısa müddətli
- Fərdi
- √ Uzunmüddətli
- Sosial

221. Müasir işəgötürən-işçi münasibətlərində nəyə diqqət yetirilir?

- Fiziki mövcudluq
- Sabit iş saatları
- Maddi faydalar
- Yalnız qısamüddətli müqavilələr
- √ Qeyri-maddi faydalar

222. Bazarın tələblərinə uyğun kadrların hazırlanmasına kim cavabdehdir?

- Dövlət qurumları

- Özəl şirkətlər
- Ailələr
√ Təhsil sistemi
- Fərdi işçilər

223. HR departamentləri getdikcə hansı növ bacarıqlara üstünlük verirlər?

- İstehsal bacarıqları
- Sərt bacarıqlara
- İdarəetmə bacarıqları
- Yalnız texniki bacarıqlar
√ Sosial bacarıqlar

224. Pandemiyadan sonrakı əmək bazarında yeni tendensiya nədir?

- Azaldılmış elastiklik
- Yalnız onlayn işləmək
- Yalnız ənənəvi ofis işləri
- Texnologiyadan istifadənin azalması
√ Hibrid iş modelləri

225. İş axtaranlar hansı əsas xüsusiyyətə malik olmalıdırlar?

- Tez həvəsdən düşmək
- Yalnız bir iş axtarış metoduna diqqət yetirin
- Onlayn platformalarda iş axtarmamaq
√ Məqsədlərini və hədəflərini bilmək
- Prosesə qarşı səbirsiz olmaq

226. Həyatımızın hansı hissəsi adətən təhsilə və iş fəaliyyətinə sərf olunur?

- Üçdə ikisi
- Dörddə biri
√ Üçdə biri
- Demək olar hamısı
- Yarısı

227. Aşağıdakılardan hansı əmək bazarının xarakteristikası DEYİL?

- Alıcı və satıcı arasında uzunmüddətli münasibət
- Alıcılar və satıcılar mövcuddur
- Xidmətlər alınır və satılır, fiziki şəxslər deyil
- İş tələblərində dinamik dəyişikliklər
√ Fiziki məhsullar əsas əmtəədir

228. Əmək bazarının mahiyyəti?

√ Əmək xidmətləri üçün işəgötürənlər və işçilər arasında qarşılıqlı əlaqə
- Hökumətin tənzimləmə çərçivəsi
- Yalnız işçilərin olduğu yer
- Malların alınıb satıldığı yer
- Təhsil təhsili sistemi

229. Təşkilatda subordinasiyanın əsas məqsədi nədir?

- Qeyri-rəsmi ünsiyyəti təşviq etmək
- İdarəçilikdə bərabərlik yaratmaq
- Rəhbərlik vəzifələrini ləğv etmək
√ Aydın iyerarxik əlaqələr qurmaq
- İşçilər arasında rəqabət yaratmaq

230. İşgüzar məktublar yazarkən nələrdən çəkinmək lazımdır?

- Paraqraflardan istifadə
- Düzgün və lakonik yazmaqdan
- Peşəkar imzalardan istifadə
√ Yalnız böyük hərflərlə yazın
- Əlaqə məlumatları daxil olmaqla

231. Biznes e-poçtuna cavab vermək üçün tövsiyə olunan müddət nədir?

- 48 saat ərzində
- 5 iş günü ərzində
- Qəbul edildikdən dərhal sonra
√ 24 saat ərzində
- Bir həftə ərzində

232. Korporativ mədəniyyətin hansı növü tapşırıqların rasional bölüşdürülməsi ilə xarakterizə olunur?

- Qeyri-sabit mədəniyyət
- Sabit mədəniyyət
- Avtoritar mədəniyyət
- Liberal mədəniyyət
√ Demokratik mədəniyyət

